Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Rusiya Pavloqradı vurub, 7 nəfər həlak olub, onlarla insan yaralanıb

3 dəqiqə öncə




Pavloqrad, 10 sentyabr, 2026-cı il

Ukraynanın Dnepropetrovsk vilayətinin Pavloqrad şəhərinə Rusiyanın zərbəsindən ölənlərin sayı yeddiyə çatıb. Səkkizi uşaq olmaqla, 70-dən çox xəsarət alan var. Bu haqda Dnepropetrovsk Vilayət Hərbi Administrasiyasının rəhbəri **Aleksandr Qanja** məlumat verib.

Yerli media “Qulliver” ticarət mərkəzinin vurulduğunu bildirir. Hücumdan sonra mağazada, ticarət pavilyonlarında və avtomobillərdə yanğın baş verib. Hücumun nəticələrinin aradan qaldırılması zamanı iki xilasedici xəsarət alaraq xəstəxanaya yerləşdirilib.

Ukrayna Milli Polisinin rəhbəri **İvan Vıqovski** bildirib ki, Rusiya son vaxtlar Dnepropetrovsk vilayətində ərzaq anbarlarına, yaşayış məhəllələrinə, qatarlara və ticarət mərkəzlərinə zərbələri intensivləşdirib. İlin əvvəlindən vilayətə əsasən dronlarla 18 mindən çox zərbə endirilib.

Rusiya Pavloqrada zərbəni, hələlik, şərh etməyib.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur